# Sumqayıt hadisələri:

## Böyük planın tərkib hissəsi

*1988-ci ilin fevralında Sumqayıtda baş verən qanlı hadisələr erməni separatçılarının əvvəlcədən düşünülmüş və incəliklə hazırlanmış təxribat əməliyyatının bir hissəsi idi. Bu, sadəcə təsadüfi bir iğtişaş deyildi - hadisələrin kökləri hələ 1987-ci ildən başlayaraq özünü büruzə verirdi. Həmin vaxt yayılan məlumatlar göstərirdi ki, erməni dairələri təxribat planları üzərində işləyir və bunun üçün müxtəlif mənbələrdən dəstək alırdılar.*



Əslində bu prosesin təməli daha əvvəl - 1970-ci illərdə qoyulmuşdu. Hələ o dövrdə ermənilərin "Krunk" adlı təşkilat üçün ianələr topladıqları barədə məlumatlar yayılırdı. Lakin zaman keçdikcə hamıya aydın oldu ki, bu səylərin arxasında "böyük Ermənistan" xülyası dayanır. Ermənilər bu ideyanı həyata keçirmək üçün müxtəlif məkrli planlar qururdular və onların əsas hədəfi Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağı qoparıb Ermənistana birləşdirmək idi. Erməni dairələrinin təxribatları təkcə siyasi arenada deyil, iqtisadi sahədə də özünü göstərirdi. Həmin illərdə onlar Azərbaycan neftinin guya rentabelli olmaması ilə bağlı Kremldə danışıqlar aparır, bununla da gələcək təxribatlar üçün zəmin hazırlayırdılar. Aydın idi ki, Sumqayıt hadisələri sadəcə bir bəhanə idi - əsl məqsəd isə genişmiqyaslı separatçılıq siyasətinin həyata keçirilməsinə şərait yaratmaqdı.

1980-ci illərdə Azərbaycan ictimaiyyəti informasiya blokadasında idi. Separatçı ermənilərin gizli cəmiyyətlər vasitəsilə təhlükəli planlar qurduqları, Azərbaycanın suverenliyinə qarşı təxribatlar hazırladıqları ya gizlədilir, ya da ciddiyə alınmırdı. Bununla yanaşı, Sumqayıtda yaşayan bəzi ermənilər də qəribə şəkildə dəyişmişdilər. Bir vaxtlar adi qonşular kimi tanınan şəxslər şübhəli davranır, sanki gizli bir planın icrasına hazırlaşırdılar. Bu planlar təkcə Sumqayıtı deyil, bütövlükdə Azərbaycanın gələcəyini hədəfə almışdı. Məqsəd ölkədə xaos yaratmaq, Azərbaycanın beynəlxalq nüfuzuna zərbə vurmaq və separatçı erməni ideologiyasına haqq qazandırmaq idi. Ermənilər öz təcavüzkar planlarını həyata keçirmək üçün məhz belə bir ssenarini işə salmış, Azərbaycana qarşı informasiya müharibəsinin əsasını qoymuşdular.

Ümumiyyətlə, həmin dövrdə Sumqayıtda kriminal vəziyyət olduqca gərgin idi. Şəhərdə çox sayda keçmiş məhkumun məskunlaşması təsadüfi deyildi - bu, gərginliyi artırmaq və qarşıdurma üçün şərait yaratmaq məqsədi daşıyırdı. Təxribatçılar şəhəri məqsədli şəkildə qeyri-sabit məkana çevirməyə çalışırdılar. Halbuki həmin dövrdə Sumqayıt Azərbaycanın sənaye mərkəzlərindən biri kimi sürətlə inkişaf edirdi. Şəhər 70-dən çox ölkəyə sənaye məhsulları ixrac edir və bu da onun beynəlxalq nüfuzunu artırırdı.

Proseslər elə bir vaxtda baş verdi ki, artıq Qarabağda separatçılar aktivləşmişdi. 1988-ci il fevralın 21-də İrəvanda və Xankəndidə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin rəhbərliyi ilə gizli danışıqlar aparılırdı, Kremldən tutmuş İrəvana qədər bütün aidiyyəti qurumlar hərəkətə keçmişdi.

Hadisələrdə iştirak etmiş Nəcəfov soyadlı gənc istintaqa bildirmişdi ki, "Qriqoryan tərəfindən təşkil olunmuş dəstə Emma adlı erməni qadının 512 saylı evinə soxuldu, dərhal onu soyundurdular və Edik Qriqoryan onu bu vəziyyətdə küçəyə çıxarmağı təklif etdi, sonra onun iştirakı ilə Emma vəhşicəsinə öldürüldü". Sumqayıt hadisələrinin istintaq materiallarında yer alan faktlar göstərir ki, təxribatın başında məhz erməni separatçıları dayanırdı. Məlumatlara görə, E.Qriqoryan və onun dəstəsi Sumqayıtda, birinci mikrorayonda M.Petrosyanın mənzilinə hücum edərək onu amansızlıqla döyüblər. Bu, onların törətdiyi saysız-hesabsız cinayətlərdən biridir. E.Qriqoryan Sumqayıt hadisələri zamanı 5 ermənini şəxsən özü qətlə yetirib, 8 erməni qadınına təcavüz edib. Lakin erməni təşkilatları onu ağır cəzadan xilas etməyə nail oldular. Nəticədə azərbaycanlı Əhməd Əhmədova ölüm hökmü çıxarıldı və hökm dərhal icra olundu. E.Qriqoryan isə cəmi 12 il həbs cəzası aldı və bir neçə ildən sonra azadlığa buraxıldı. Bu, Sumqayıt hadisələrinin əsl mahiyyətini ört-basdır etmək məqsədilə həyata keçirilən plan idi.

SSRİ DTK-nın himayə etdiyi silahlı qruplar şəhərin müxtəlif yerlərində qətliamlar törədirdi. 26 erməninin qətlə yetirilməsi məhz bu dəstələrin işi idi. general Krayevin komandanlığı altında şəhərə yeridilən ordu hissələri isə baş verənləri sadəcə kənardan izləyirdi. Yalnız fevralın 29-da müdaxilə edildikdən sonra 6 azərbaycanlı tankların altında qalaraq şəhid oldu, 400 nəfər ağır xəsarət aldı, 200 mənzil talan edildi, 50-yə yaxın ictimai obyekt dağıdıldı, 40-dan çox avtomobil yararsız hala salındı. Martın 1-dən etibarən Sumqayıtda komendant saatı tətbiq olundu. Azərbaycanın ozamankı rəhbərliyi isə bu qanlı hadisələrin araşdırılmasını ermənilərin xeyrinə aparan istintaq qrupunun ədalətsiz qərarına sadəcə göz yummadı, üstəlik, ona imza atdı. Bununla da Sumqayıt hadisələrinin əsl mahiyyəti dünya ictimaiyyətindən gizlədildi, Azərbaycan isə günahkar kimi göstərildi.

Sumqayıt hadisələrinin əsl mahiyyətini açmaq və illərlə üstü ört-basdır edilən cinayətləri araşdırmaq üçün Azərbaycan dövləti qəti siyasi iradə ortaya qoydu. Prezident İlham Əliyevin göstərişi və Baş prokurorun qərarı ilə keçmiş SSRİ Baş Prokurorluğu tərəfindən istintaqı aparılaraq sonradan dayandırılmış beş cinayət işi yenidən açıldı və vahid icraatda birləşdirildi. Bu mühüm işin araşdırılması Baş prokurorun birinci müavininin rəhbərliyi altında prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin müstəntiq və əməliyyatçılarından ibarət istintaq-əməliyyat qrupuna həvalə edildi. Görülən genişmiqyaslı istintaq-əməliyyat tədbirləri nəticəsində Sumqayıt hadisələrinin həqiqi mahiyyəti ortaya çıxdı. Sübut olundu ki, bu iğtişaşlar sovet rəhbərliyində mövcud olan ermənipərəst qüvvələrin göstərişi ilə əvvəlcədən hazırlanmış ssenari əsasında erməni separatçıları tərəfindən törədilib. Bu həqiqətlərin ən mühüm sübutlarından biri də 2016-cı il martın 31-də Moskvada





təqdimatı keçirilən jurnalist Səadət Qədirovanın "Sumqayıt hadisələri barədə ilk mənbələrdən" adlı kitabında yer alan faktlardır. Kitabın təqdimatında SSRİ Prokurorluğunun ilkin istintaq-əməliyyat qrupunun üzvü olmuş Vladimir Kaliniçenko və digər şəxslər açıq şəkildə bildiriblər ki, Sumqayıt hadisələri məhz erməni lobbisinin təsiri altında olan SSRİ rəhbərliyinin sifarişi ilə SSRİ Dövlət Təhlükəsizlik Komitəsi (DTK) tərəfindən təşkil olunub. Bu səbəbdən də hadisələrin əsas təşkilatçıları heç vaxt məsuliyyətə cəlb edilməyib.

Bu faktlar bir daha göstərir ki, Sumqayıt hadisələri erməni separatçılarının məkrli planlarının və sovet rəhbərliyindəki havadarlarının Azərbaycana qarşı yönəlmiş təxribat siyasətinin bir hissəsi idi. Lakin illərlə gizlədilən həqiqətlər artıq gün işığına çıxdı və Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq yolunda ciddi addımlar ataraq beynəlxalq ictimaiyyəti zəhərləyən spekulyasiyaları ifşa etdi.

**Nurlan ABDALOV,**
**"Respublika".**